

Böyük Yunus kimdir?

Turan KARATAŞ

Yunus İmrə türk şairlərinin piridir. Bir türkmən alimi. Haqq'dan gələn şərabı içən mistik bir ərən. Xoca Əhməd Yasəvinin Türkistanda yandırdığı hikmət məşəlini Anadoluda kənddən-kəndə, şəhərdən-şəhərə ziyalılığını artıraraq gəzdirən və qəlblərə işıq salan ulu dərviş.

Qarlı dağlara düşən qış günəşi. Çiçəklərin özünü təravətləndirən aprel yağışı. Uyuşmuş bədənlərə canlılıq bağışlayan səhər yeli. Dağılmış, xarabaya dönmüş yunan torpağında oyanan saf torpaq, qoxulu çiçək, göydə uçan quş.

Ağ kağızdakı qara yazını oxumadan kəlmələrin əfəndisi olan söz sultanı. Türk şeirini mayalandıran məna öncüsü. Yeddi yüz ildir ki, pörsüməyən, solmayan, köhnəlməyən, panltısı azalmayan bir şeirin səs ustası. Türkcəni ilmə-ilmə, naxış-naxış toxuyan böyük nəqqaş. 'Türkcənin süd dişləri."

Böyük Yunus türkcə şeirin ilk hüceyrəsidir. Saf, duru, aydın bir mənbə. Tər-təmiz. Uca dağ başlarından doğmuş, geniş vadilərə axmışdır. Anadolu torpağını suladı. Monqol yanğınının bulandırdığı, qana batırdığı könülləri yudu, durultdu. Qırılıb tökülən insanı təmir etdi, qaydaya saldı. Sevgi iksiri ilə yeni bir canlılıq suyu təqdim etdi.

Bu təmiz dağ suyu əsrlər boyu axdı, axdı, axdı; düzənlikləri, vadiləri dolaşdı; könüldən-könülə,dildən-dilə çatdı, yumşaq bir dil oldu. O günə qədər türk dilinə dönüb baxmayan kəslər bu sehrli səslə məst oldular, onun ardınca çox sözlər söyləyib türkcə şeir külliyatını inşa etməyə başladılar. Bu ulu çayda sinəsinin əks-sədasını eşidən neçə-neçə səslər ona qatıldı. Beləliklə, Böyük Yunus milli bir həssasiyyət, ortaq bir dil oldu.

Yunus, nüfuzlular tərəfindən qəbul edilən bir Türk klassikidir. Şeir oxuycusu olub da ona yolu düşməyən yoxdur. Yunusu oxumadan türk şeirinin gülüstanına girmək mümkünsüzdür. Hər xarakterdən, hər peşədən və hər məzhəbdən insanlara deyəcək bir sözü var. Sevənləri çoxdur. Çünki o, "söyənə lal, döyənə əlsiz" olmuşdur. İzləyənləri türk dilinin dadını bilən hər kəsdir.

Cümlə yaradılana nəzər edən həqiqətli bir baxışdır Yunus. 'On səkkiz min aləm xalqını'nı Bir (1) içində görən hikmət gözüdür. Onun sözüylə desək, yetmiş iki millətə eyni gözlə baxan, könüllərdə söz atəşini yandıran, can içində dostu tapan bir aşiqdir.

Yunus bir eşq yolçusudur. Ölümsüzlük suyunu Tanrıya aşiqlik yolunda tapmış və doya-doya içmişdir. İlahi eşqin şərabından içən canlardandır.

Gedib gəldiyi yer və məşğuliyyəti eşq olan bu ərin davası da sevgidir.

Bənzətmə düzgündürsə, Yunus bir söhbət peyğəmbəridir. Bunlardır;



Mən gəlmədim davı üçün,
Mənim işim sevi üçün,
Dostun evi könüllərdir,
Könüllər almağa gəldim.

deyərək şəhər-şəhər səfər etmiş; viran olmuş neçə-neçə könlün imarətinə həkimlik etmişdir. Çünki Yunus könlü Haqqın evi, həqiqətin sığınacağı bilir və əmr edildiyi kimi doğru yaşamağın əvvəlcə könülləri fəth etməkdən keçdiyinə inanır. Əgər könüllərə eşqin şöləsi düşərsə, orada pis qayğı olmaz. Möminlərə, yoldaşlarına ən birinci nəsihəti budur:

Əgər könül yıxsanız, boş yerə Həccə əmək verməyin! Dünya şeirini tədqiq etsəniz, bu dərinlikdə və insana onu yüksəklərə qaldıran sözlər çox-çox az tapılar:

Könül Çalabın taxtı
Könülə Çalab bəxti
İki cahan bədbəxtdi
Kim könül yıxar isə

Yunusun keçib gedən davalarla alış-verişi yoxdur. Sevdiyinə qul olan, hər dəm açılıb gül olan, oxuyub bülbül olan, ocağı gülüstan olan bir əbədiyyət yolçusudur.

Yol əridir Yunus, qərib könüllərin yarıdır. Ürəyi yaralı, incə duyğulu, gözü yaşlı dünya qürbətində gəzməkdədir. Dilindəki,

'Bir qərib öldü' deyələr,
Üç gündən sonra duyalar.
Soyuq su ilə yuyalar
Öylə qərib – mənim kimi...

dərinlikdə, hüzün qoxulu sözləriylə.

Yunus heç kimə pislik düşünməmiş və arzulamamışdır. Ona səhər verənə belə bal verməkdən yanadır.

Hər kim mənə əğyar isə , Haq Tanrı yar olsun ona.
Hər haraya varar isə, bagü bahar olsun ona.
Mənə ağu sunan kişi, şəhdi şəkər olsun işi.
Qolay gələ müşgül işi, əli erər olsun ona.
Önümə quyu qazanı, Haq taxta qaldırsın onu.
Ardımca daşlar atanı, güllər nisar olsun ona.
Acı dirliyim istəyən, dadlı dirilsin dünyada.
Kim ölümüm istər isə, min il ömür olsun ona.
Hər kim dilər mən xar olam, düşmən əlində zar olam,
Dostları şadü, düşməni- dostu əğyar olsun ona.
Misgin Yunusun dünyada güldüyünü istəməyən,
Ağladığım istəyənin gözüm pinar olsun ona.

Dünya millətlərinin ədəbiyyatlarında, söz varlıqlarında Yunus qədər böyük ürəkli, tolerans sahibi bir söz sultanına rast gəlinməyəcəyini yuxarıdakı nümunə belə sübut edir.

Yunusun bütün narahatçılığı "əşrəfi məxluqat" deyə vəsfləndirilən insanın dünya səyahətini tələb edildiyi şəkildə tamamlaması, kamil insan dərəcəsinə yüksəlməsi üçündür. Ağacla danışarkən də, dünyandan dəyirman misalı bəhs edərkən də, dərdi insana əbədi xoşbəxtliyin yolunu göstərməkdir. Bunun üçün də insanı yaxşı tanımaq, bilmək lazımdır.

Bugünki psixoloqların öyrənə bilmədikləri insan xüsusiyyətlərini, Yunus düz yeddi yüz il əvvəl saymışdır.



Budur onun əsəri:
Həqq bir könül verdi mənə, hə demədən heyran olur,
Bir dəm gəlir şadi olur, bir dem gelir giryan olur.

Bir dem sanasın qış kimi, şol zəmhəri olmuş kimi,
Bir dem bəşarətdən doğar, xoş bağ ilə bostan olur.

Bir dəm gəlir söyləyəməz, bir sözü şərh eyləyəməz,
Bir dəm dilindən dürr dökər, dərdlilərə dərman olur.

Bir dəm çıxar ərş üzərə, bir dəm enər taxtüssəra,
Bir dəm sanasın qətredir, bir dəm daşar ümman olur.

Bir dəm cəhalətdə qalır, heç nəsnəyi bilməz olur,
Bir dəm dalar hikmətlərə, Calenusü Loğman olur.

Bir dəm div olur ya pəri, viranələr olur yeri,
Bir dəm uçar Bilqeys ilə sultani-insü can olur.

Bir dəm varır məscidlərə, üz sürər anda yerlərə,
Bir dəm varır deyrə girər, İncil oxur röhban olur.

Bir dəm gəlir Musa olur yüz min münacatlar qılır
Bir dəm girər kibr evinə Firovn ilə Haman olur.

Bir dəm gəlir İsa kimi ölmüşləri diri qılır,
Bir dəm gəlir gümrahleyn yolunda sərgərdan olur.

Bir dəm dönər Cəbrayıla, rəhmət saçar hər məhfile,
Bir dəm gəlir gümrah olur, misgin Yunus heyran olur.

Nə zaman hadisələr və insanlar içimi qaraltsa, böyük Yunusun şeirlərini oxuyuram. Duruluram, dincəlirəm, yenilənirəm sanki. Sağaldan bir dərman kimi xəstəliklərin şəfasıdır sözləri.

Yunusun əsəri təp-təzə önümüzdədir. Hər dəm yenidən doğan və usanılmayan.

Aşiq öldü deyə sela verirlər,
Ölən heyvan imiş, aşiqlər ölməz.
Ölümsüz aşiqlərə salam olsun...

Tərcümə:
Aygün Ələkbərzadə

Yunusun bütün narahatçılığı "əşrəfi məxluqat" deyə vəsfləndirilən insanın dünya səyahətini tələb edildiyi şəkildə tamamlaması, kamil insan dərəcəsinə yüksəlməsi üçündür. Ağacla danışarkən də, dünyandan dəyirman misalı bəhs edərkən də, dərdi insana əbədi xoşbəxtliyin yolunu göstərməkdir. Bunun üçün də insanı yaxşı tanımaq, bilmək lazımdır. Bugünki psixoloqların öyrənə bilmədikləri insan xüsusiyyətlərini, Yunus düz yeddi yüz il əvvəl saymışdır